AMEA *İqtisadiyyat İnstitutu*
ISSN 2519-4909

«ELMİ ƏSƏRLƏR» - №3- 2018
E-ISSN 2519-4917

UOT: 338.48
JEL: L83

MƏMMƏDOVA Ü. İ.
AMEA İqtisadiyyat İnstitutunun dissertantı
E-mail: *ulker13@rambler.ru*

TURİZM SEKTORUNUN DÖVLƏT TƏNZİMLƏNMƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ TƏCRÜBƏ

Xülasə

Tədqiqatın məqsədi - turizm sektorunda dövlət tənzimlənməsinin beynəlxalq təcrübəsini müqayisəli təhlil edərək Azərbaycanda turizm sektorunun inkişafı üçün uyğun modelin müəyyən edilməsi.

Tədqiqatın metodologiyası –müqayisəli təhlil

Tədqiqatın nəticələri- Azərbaycanda turizm sektorunun inkişafında Avropa modelinin seçilməsi daha məqsədəuyğundur.

Açar sözlər: *Azad turizm modeli, Avropa modeli, dövlət tənzimləməsi, investisiya, turizmdə marketinq fəaliyyəti*

GİRİŞ

Turizm sektoru digər iqtisadi fəaliyyət növlərindən fərqli olaraq dövlətin iqtisadi ehtiyaclarının daha tez bir zamanda həyata keçirilməsinə imkan verir. Xüsusilə, kiçik və orta sahibkarlığın inkişafında, infrastrukturun təkmilləşdirilməsində və daxili investisiyaların cəlb edilməsində bu sektor daha çevikdir. Regionlarda iş yerlərinin yaradılması üçün turizm fəaliyyətindən istifadə daha asandır. Çünki bu sektorda yüksək bilik və bacarıqlar tələb olunsa da onların əldə edilməsi üçün fundamental təhsil və elmi infrastruktur tələb olunmur. Turizm sektorunda dövlət tənzimlənməsi onun inkişafına təsir göstərə bilən əksər mərhələlərdə tələb olunur. Məsələn, ölkəyə gələn turistlərin viza problemlərindən tutmuş, ölkə daxilində sərbəst hərəkətlərinə qədər, onların yerləşdirilməsindən tutmuş milli valyuta ilə asan təmin olunmalarına qədər çoxlu sayda problemlərə dövlət tənzimlənməsi təsir göstərir. Ona görə də turizm sahəsində aktiv və dinamik siyasət turist sektorunun inkişafının bütün mərhələlərini əhatə edən dövlət tənzimlənməsinin səmərəliliyinə əsaslanır. Azərbaycanda turizm sektoru ənənəvi sahə deyil. Ona görə də bu sahənin davamlı inkişafının təmin edilməsi üçün inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edilməlidir. Ölkənin iqtisadi, mədəni və sosial xüsusiyyətlərinə uyğun olan düzgün xarici təcrübənin seçilməsi isə belə təcrübələrin müqayisəli öyrənilməsini zəruri edir.

Artıq iqtisadi fəaliyyət sahələri arasında xidmət sektoru, onun daxilində isə turizm əksər ölkələrdə milli gəlirin əsas hissəsini təşkil edir. Xüsusilə, kiçik ölkələrdə turizmdən əsas gəlir sahəsi kimi istifadə etmək meyilləri getdikcə artmaqdadır. Azərbaycanın coğrafi mövqeyi, təbiəti, tarixi və dini-mədəni əlaqələri turizmin inkişafı üçün yüksək potensial yaradır. Bu potensialın dövlət siyasəti vasitəsi ilə tənzimlənməsi onun reallaşmasına imkan yarada bilər. Nəzərə almaq lazımdır ki, turizm sektorunun dövlət idarəçiliyi dərəcəsi müxtəlif ölkələrdə fərqlidir və onların iqtisadi inkişaf səviyyəsindən asılıdır. Bu vəziyyət turizm sektoru tərəfindən dövlət tənzimlənməsinin bir neçə əsas modelinin ortaya çıxmasına səbəb olur.

Turizm sahəsində əsas elmi yanaşmalar

Turizm sektorunun və onun dövlət tənzimlənməsi problemlərinin araşdırılmasına iqtisadi ədəbiyyatda tez-tez rast gəlinir. Alekseyeva, B. Birkoviç, M. Boruşçak, V. Gerasimenko turizm sənayesinin inkişafı, idarə olunması və işlədilməsi problemlərinin F. Kotler, M. Marinin, E. Pisarevski, V. Tsybukh, C. Tschol I. Zorin, A.V.Apilat, V.M Vakulenko və I.V Valentyuk turizm sahəsində dövlət idarəetmə məsələlərinin, turizmin dövlət tənzimlənməsi anlayışının, eləcə də regional yanaşmaların funksional xüsusiyyətlərinin öyrənilməsinə mühüm töhfələr vermişlər. Turizm sektorunun tənzimlənməsi modellərinin bazar

şəraitində fəaliyyət göstərən dövlət turizm siyasətinin təşkilati, sosial və iqtisadi mexanizmləri ilə bağlı problemlərə S. S. Qalasyuk, O.V. Tsaruk, A. M. Çeçel və digər alimlərin məqalələrində də rast gəlinir. Azərbaycan alimlərindən Ə.Əlirzayev, Bilalov B. və başqaları da turizmin dövlət tənzimlənməsi problemləri ilə bağlı tədqiqatlar aparıblar. Qeyd etmək lazımdır ki, əksər ölkələrdə idarəetmə orqanlarının qeyri-sabitliyi, turizm sahəsində idarəetməyə aid yanaşmalarının tez-tez dəyişməsi, dövlətin daxili və xarici əlaqələrindəki problemlər səbəbindən turizm sektorunun tənzimlənməsində boşluqlar yaranır. Azərbaycanda da belə problemlər mövcuddur. Ona görə də beynəlxalq təcrübənin öyrənilməsi Azərbaycanda turizmin dövlət tənzimlənməsi sahəsində optimal modelin seçilməsinə kömək edə bilər.

O.V. Tsaruk turizm sektorunun dövlət tənzimlənməsinin üç modelini təklif edir [4]: 1)Azad bazar (Amerika) modeli. Bu modelə görə turizmin dövlət tərəfindən birbaşa tənzimlənməsi mexanizmi yoxdur; 2)Keyns modeli. Bu modelə əsasən, bəzi ölkələrdə, məsələn, Türkiyə, Tunis, Misir, Malta və Xorvatiyada turizmin idarəedilməsi üçün müvafiq dövlət qurumları fəaliyyət göstərir; 3)Avropa modeli. Bu modelə əsasən turizmin inkişafında mövcud problemləri aradan qaldırmaq üçün çoxfunksiyalı nazirlik səviyyəsində müdaxilələr olunur. Məsələn, belə model Fransa, Çexiya, Avstriya və digər Avropa ölkələrində tətbiq edilir.

S.S.Qalasyuk turizm sektorunun fəaliyyətinin təşkili üçün dövlət tənzimlənməsinin dörd əsas modelini ayırır. Bu modellər bir birindən dövlətin turizm sektoruna müdaxiləsi səviyyəsinə görə fərqləndirilir. Birinci modeldə inkişaf etməkdə olan ölkələr üçün ümumi və turizm baxımından əhəmiyyətli nəzarəti əks etdirən güclü bir nazirliyin mövcudluğunu nəzərdə tutur. Dövlətin turizm sektoruna müdaxilə dərəcəsinə görə təhlil olunan 193 ölkədən 40-ı Qalasyukun bu modelinə uyğundur. İkinci model başqa maddi sektorlarla, məsələn, enerji, ticarət, nəqliyyat, rabitə və ya qeyri-maddi sektorlarla, məsələn, mədəniyyət, idman, ətraf mühitin mühafizəsi ilə birgə turizm sahəsini də idarə edən nazirliyin yaradılmasıdır. Bu model həm inkişaf etməkdə olan ölkələrin, həm də keçid ölkələrinin iqtisadiyyatı üçün xarakterikdir. Bunları birləşdirən əsas cəhət, bu ölkələrin özlərinə uyğun turizm bazarları yaratmaq niyyətləridir. Bu model geniş yayılmışdır və tədqiqata cəlb edilən ölkələrin təxminən 41% -ni (79 ölkə) təşkil edir. Üçüncü model müstəqil ixtisaslaşmış qurumun yaradılması ilə xarakterizə olunur. Belə qurumlardan biri Milli turizm idarəsi ola bilər. Bu idarəyə isə çoxfunksiyalı Nazirlik və ya dövlət birbaşa rəhbərlik edə bilər. Belə müdaxilə səviyyəsinə daha çox Avropa ölkələrində rast gəlinir. Tədqiqata cəlb edilən 193 ölkədən 61-də belə qurumlar fəaliyyət göstərir. Tədqiqata cəlb edilən ölkələrdən yalnız 7%-i, yəni 13 ölkədə turizm sektorunun dövlət tərəfindən tənzimləməsi həyata keçirilmir. Belə ölkələrdə turizm sektoruna aid müxtəlif məsələlər ya regional səviyyədə, ya da bazar münasibətlərinə əsasən biznes subyektləri tərəfindən müstəqil həll olunur. Qeyd etmək lazımdır ki, bu modelin tətbiqi turizm sektorunun inkişafı ilə bağlı deyil. Belə ki, bu modeldən inkişaf etmiş turizm infrastrukturuna malik olan və əlavə reklam tələb etməyən ölkələrdə, məsələn, Belçika, Koreyada istifadə edildiyi kimi, iqtisadi-siyasi vəziyyəti mürəkkəb olan ölkələrdə də, məsələn, Somali və Konqoda da istifadə edilir. [3]. İqtisadiyyatın digər sahələrində olduğu kimi turizm sektorunda da dövlət tənzimlənməsi səviyyəsi və metodları müxtəlif amillərdən, o cümlədən ölkənin mədəni özünəməxsusluğundan və özünütənzimləmə səviyyəsindən asılıdır. Elə buna görə də ölkənin daxili və xarici əlaqələrindən, iqtisadi konyukturadan asılı olaraq ölkə yuxarıda təsvir edilən modellərdən hər hansı birinin seçilməsi müvəqqəti xarakter daşıyır. Məsələn, Amerika Birləşmiş Ştatları üçün müəyyən müddət Tsarukun "Amerika" modeli xas olduğu halda bu yaxınlarda S.S.Qalasyukun üçüncü modeli tətbiq edilməyə başlandı. Bu modelə əsasən ölkədə turizm sektorunun fəaliyyətini tənzimləmək məqsədilə çoxfunksiyalı nazirlik çərçivəsində Milli Turizm İdarəsi yaradıldı.

Araşdırmalardan görünür ki, Azərbaycanda turizm sahəsində dövlət tənzimlənməsinin optimal modelinin tapılması istiqamətində axtarışlar hələ yekunlaşmayıb. Belə ki, son iyirmi

ildə ölkədə turizm sektorunun dövlət tənzimlənməsinin müxtəlif modelləri tətbiq edilib və Azərbaycanda aparılan islahatlar nəticəsində turizm sektorunda müəyyən dəyişikliklər baş vermişdir. Uzun müddətdir ki, Azərbaycanda turizm sektoru S.S Qalasyukun üçüncü modelinə əsaslanaraq fəaliyyət göstərdiyi halda, 2018-ci ildən O.V. Tsarukun turizm sektorunun dövlət tənzimlənməsinin üçüncü modeli təklif edilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2006-cı il tarixli 393 nömrəli Fərmanı ilə Mədəniyyət və Turizm Nazirliyi haqqında əsasnamə təsdiq edilmişdir. Lakin, turizm sektorunun daha yüksək gəlir əldə etməsi üçün bu sahədə islahatlar davam etməkdədir. Prezident İlham Əliyev 2018-ci il aprelin 20-də "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzalayıb və bu Sərəncama əsasən, Mədəniyyət və Turizm Nazirliyinin əsasında Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyi yaradılmışdır. Eyni zamanda, Mədəniyyət Nazirliyinin və Dövlət Turizm Agentliyinin əsasnamələrini, layihələrini, strukturunu və işçilərinin say həddi barədə təkliflərini bir ay müddətində Azərbaycan Prezidentinə təqdim etmək tapşırılmışdır. Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində Mədəniyyət və Turizm Nazirliyi üçün nəzərdə tutulmuş vəsait çərçivəsində Mədəniyyət Nazirliyinin və Dövlət Turizm Agentliyinin 2018-ci ildə fəaliyyətinin maliyyələşməsi təmin ediləcəkdir [6].

Beynəlxalq ölkələrin təcrübəsi göstərir ki, turizmin sektorunun inkişafının uğuru birbaşa bu sektorun nə qədər dövlət dəstəyinə malik olduğundan asılıdır. Turizm sahəsində dövlət idarəçiliyinin vacibliyi xüsusi bir yanaşma tələb edir. Bir tərəfdən, turizmin şaxələndirilmiş kompleks kimi, digər iqtisadi fəaliyyət sahələri ilə, həmçinin dövlət orqanları ilə qarşılıqlı əlaqələrinin genişlənməsinə ehtiyacı var. Digər tərəfdən, həddindən artıq dövlətin müdaxiləsinin mövcudluğu və turizm fəaliyyətinin tənzimlənməsi bazar münasibətlərinin formalaşmasına və inkişafına mane ola bilər. Dövlət müdaxiləsinin artması müəyyən həddən sonra azad sahibkarlıq təşəbbüsünün azaldılmasına səbəb olur. Turizm sektorunun hər bir ölkə üçün böyük iqtisadi, siyasi və sosial-mədəni əhəmiyyətini nəzərə alaraq dövlət müdaxiləsinin elə həddini müəyyən etmək lazımdır ki, bu sahədə sahibkarlıq təşəbbüsünün inkişafına zərər dəyməsin. Məhz belə optimal tənzimləmə səviyyəsinin müəyyən edilməsi metodoloji nöqteyi-nəzərdən turizmin inkişafını xarakterizə edən göstəricilər ilə ölkənin makroiqtisadi, sosial-iqtisadi və mədəni inkişafı arasındakı qarşılıqlı əlaqənin təmin edilməsindən, həmçinin dövlətin turizm siyasətini reallaşdırma mexanizmlərindən asılı olacaq. Turizmin dövlət tənzimlənməsinin müasir modellərinin təhlili deməyə əsas verir ki, turizmin inkişafının uğuru dövlətin turizm sahəsinə münasibətindən, dövlətin bu sektoru nə dərəcədə dəstəkləməsindən, iqtisadi fəaliyyət sahələri arasındakı asılılıqdan, ölkənin ümumi təşviqat strategiyasından asılıdır.

Turizmin dövlət tənzimlənməsinə ehtiyac olsa da, bu məsələdə xüsusilə diqqətli olmaq lazımdır. Bir tərəfdən, turizm müxtəlif sahələrdən daha çox koordinasiyaya ehtiyacı olan diversifikasiyalı bir sektordur, digər tərəfdən, dövlət tənzimlənməsinin həddən artıq olması turizm inkişafının əsasını təşkil edən sahibkarlıq təşəbbüsünə mane olur. Dünya təcrübəsi turizm sahəsində mükəmməl idarəetmə sistemini yarada biləcək optimal formulun olmadığını sübut edir, lakin seçilmiş istiqamətdə ardıcıl, yaxşı düşünülmüş və məqsədyönlü dövlət siyasəti turizmin özünü tənzimləyən təşkilatlar ilə sıx əməkdaşlıqda əhəmiyyətli uğurlara gətirib çıxarır.

Dünya təcrübəsi göstərir ki, dövlətin turist sektorunun idarə olunması üçün optimal bir struktur yaratmasına imkan verəcək ideal bir qayda yoxdur. Turizmin dövlət tənzimlənməsi prinsiplərini öyrənərkən, hazırda dünya turizm bazarında mövcud olan vəziyyəti belə təsnifləşdirmək olar[1].

- ölkədə turizmin bütün aspektlərinin ciddi şəkildə idarəetməsi;
- birləşdirilmiş nazirlik səviyəsində turizm sektorunun iqtisadiyyatın müvafiq sahələri ilə inteqrasiyasının təmin edilməsi;
- milli turizm idarələrinin müvafiq orqanları tərəfindən turizm fəaliyyətinin tənzimlənməsi və koordinasiyasına sərbəst yanaşmalar;

➢ sosial və iqtisadi baxımından turizmə olan laqeydlik.

Turizm sahəsində dövlət tənzimləməsinin əsas istiqamətləri

Yuxarıda qeyd etdiyimiz kimi, turizm sektorunun dövlət tənzimlənməsi prosesinə müxtəlif yanaşmalar var. Bazar iqtisadiyyatı inkişaf etmiş bir çox ölkədə turizm sektoru dövlət tərəfindən tənzimlənmir. Bu ölkələrdə turizm bazarı tam sərbəstdir və bazar agentləri arasındakı münasibətlər tənzimləyici rolunu yerinə yetirir. Turizm xidmətləri bazarında dövlət tənzimləməsi mövcud olan ölkələrdə isə əsasən iki modeldən istifadə olunur. Bu ölkələrdə turizm sektorunun idarə edilməsi üçün ya xüsusi dövlət orqanları fəaliyyət göstərir, ya da çoxsahəli təşkilatlar tərəfindən tənzimlənir. Beləliklə, turizm sektoruna dövlət müdaxiləsi səviyyəsinə görə mövcud olan müxtəlif modelləri 1-ci cədvəldə verildiyi kimi qruplaşdıra bilərik.

Birinci (bazar) model-mərkəzi dövlət turizmi idarəsinin, dövlət səviyyəsində hakimiyyəti orqanlarının olmamasını nəzərdə tutur. Turizmin inkişafı ilə bağlı bütün məsələlər regional səviyyədə və ya təsərrüfat subyektləri tərəfindən sərbəst tənzimləmə və bazar iqtisadiyyatı prinsipləri əsasında müstəqil olaraq həll olunur. Bu modelidən istifadənin əsas şərtlərindən biri, ölkənin bütün turistlər üçün cəlbedici olması və dünya bazarında milli turizm məhsulunun xüsusi reklama ehtiyacının olmamasıdır.

1997-ci ildə büdcə vəsaitlərinin qənaət edilməsi məqsədilə Amerika Birləşmiş Ştatlarında turizm sektorunun inkişafı üçün belə bir model formalaşmışdır. ABŞ-da turizm sektorunun inkişafı ilə məşğul olan Turizm və Turizm İdarəsi (USTTA) yaradılmışdır. Bu addım ABŞ-ın beynəlxalq turizm bazarında mövqeyini saxlamasına xidmət etmişdir. ABŞ-da USTTA əvəzinə digər qurum -Turizm və Səyahət Məsləhət Şurası (USTTAB) turizm sənayesinin inkişafında mühüm əhəmiyyəti olan orqandır.

Qeyd edək ki, ABŞ-da tətbiq edilən bu model bütün ölkələr üçün keçərli ola bilməz. Çünki bu model elə bir ölkədə tətbiq oluna

bilər ki, orada turizm bazarı yüksək inkişaf etmiş olsun. Bu bazarın iştirakçıları arasında rəqabətlilik mühitinin təmin edilməsi üçün zəruri qanunvericilik sistemi olmalıdır. Bu model turizm bazarında daxili problemlərin həllinin dövlətin iştirakı olmadan mümkünlüyünü əsas götürür. Bu model inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə effektivdir, burada müxtəlif ölçülü və ixtisaslaşmış xüsusi şirkətlər üstünlük təşkil edir. Bu modeli qəbul edən ölkələrdə inkişaf etmiş infrastruktur, turistlərin təhlükəsizliyini təmin edən hüquqi sistem, yüksək səviyyəli bank xidmətləri, sığorta xidmətləri və tibbi xidmətlər olmalıdır.

Turizmin inkişafının **ikinci modeli** inkişaf etməkdə olan və bütün turizm sənayesinin fəaliyyətinə nəzarət edən xüsusi, güclü, avtoritar və müstəqil dövlət mərkəzi orqanının (nazirlik, idarəetmə və s.) varlığını nəzərdə tutur. Nazirlik investisiyalar, marketinq tədqiqatları, təlimlər, reklam və s. sahəsində əhəmiyyətli səlahiyyətlərə malikdir. İxtisaslaşmış orqanlar demək olar ki, yalnız turizm sektorunun fəaliyyəti ilə məşğul olurlar. Bu model yüksək səviyyəli turist imicinin formalaşması üçün vacibdir. Bu modeli tətbiq edən ölkələrdə turizm bu ölkələrin ictimai-siyasi həyatında əsas rol oynayır.

İkinci modeli tətbiq edən ölkələrdə infrastrukturun inkişafı, turizm sektoruna investisiyaların cəlb edilməsi, dünya bazarlarında milli turizm məhsulunun təqdimatı milli turizm təşkilatlarının mühüm vəzifəsi hesab olunur. Bu, Cənubi, Mərkəzi və Şərqi Avropa ölkələri üçün xarakterikdir. Avropa ölkələri arasında daha çox şaxələnmə, xüsusilə mədəniyyət və idman ilə turizm bir yerdə qəbul edilir. Bu modeli tətbiq edən ölkələrə Andorra, Azərbaycan, Albaniya, Yunanıstan, Türkiyə, Ukrayna, həmçinin Rusiya Federasiyası, Belarus, Qazaxıstan, Polşa, San Marino misal ola bilər. Turizm və maddi istehsal sahələri nazirliklərinin birgə idarəedilməsi yalnız Avropanın 6 ölkəsində - İspaniya, İslandiya, Lüksemburq, Bolqarıstan, Rumıniya və Kiprdə vardır.

Beləliklə, turizm sektorunda dövlət tənzimlənməsinin ikinci modeli inkişaf etməkdə olan ölkələrdə və keçid iqtisadiyyatı olan ölkələrdə tətbiq edilir. Lakin bu modelə turizmə daha çox maraq göstərmək istəyən inkişaf etmiş ölkələrdə də rast gəlinir.

Cədvəl №1.

Dünya üzrə turizm sektorunun inkişaf modelləri

Turizm sektorunun inkişaf modelləri			
İlk model - " Amerika bazarı "	İkinci model- "Turizm- büdcə gəlirlərinin əsas mənbəyi"	Üçüncü model "Avropa"	Dördüncü model "Birləşdirilmiş"
Əməliyyat tənzimlənməsi, mezoiqtisadi + mikroiqtisadi səviyyə	Dövlət tənzimlənməsi, makroiqtisadi + mezoiqtisadi + mikroiqtisadi səviyyə		
İnkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələr	İnkişaf etməkdə olan ölkələr, keçid iqtisadiyyatı olan ölkələr, artıq inkişaf etmiş turizm sənayesi ölkələri	İnkişaf etmiş Avropa dövlətləri	Qəbul edən (məsələn, ev sahibi) turizm bazarları olan ölkələr
Turizmin inkişafı ilə məşğul olan dövlət idarəçiliyinin olması. Yerdəki turizm inkişaf problemlərini həll edir.Bazar iqtisadiyyatının prinsipləri	Xüsusi dövlət qurumları. Mərkəzi orqan nazirlikdir	Çoxsektorlu, çoxtərəfli bir qurumun (nazirliyin) və ya ölkənin dövlətə tabe olan ixtisaslaşmış şöbə birliyi (mərkəzləşdirilmiş quruluş, dövlət orqanı)	Kombinə edilmiş nazirlik (turizm + ona bitişik və ya sosial və iqtisadi siyasətin tamamlayıcı istiqamətləri).Turizm iqtisadi inkişafın prioritet istiqamətlərindəndir. Mərkəzi və regional turizm idarələri arasında səlahiyyətlərin açıq şəkildə paylanması
ABŞ	İsrail, Misir, Hindistan, Kuba, Malta, Mərakeş, Meksika, Yeni Zelandiya, Malayziya, Keniya, Oman, Kamboca, Cənubi Afrika, Dominikan Respublikası, Xorvatiya	İsveçrə, Almaniya, Fransa, Avstriya, Böyük Britaniya, İtaliya, İspaniya, İsveç, Sinqapur, Çexiya, Macarıstan,Azərrbaycan, Gürcüstan, Ermənistan	Türkiyə, Yunanıstan, Polşa, Tunis, İndoneziya, Bolqarıstan, İordaniya, Rusiya Federasiyası

Mənbə: [3] əsasında müəllif tərəfindən hazırlanıb.

İkinci modelin xarakterik xüsusiyyətləri aşağıdakılardır:

- əhəmiyyətli maliyyə vəsaitləri qoyuluşu;
- turizm sektorunun yüksək səviyyəli milli turizm məhsulu kimi tanınması;
- beynəlxalq səviyyəli turizm infrastrukturunun yaradılması;
- daha çox turist qəbulu üçün təhlükəsizliyin təmin edilməsi;
- kiçik və orta biznes üçün dəstəyin yaradılması.

İnkişaf etmiş bəzi Avropa ölkələrində turizm sektorunun **üçüncü**-Avropa modeli tətbiq edilir. Bu modelə əsasən,turizm sektorunun inkişafı nə müstəqildir (ABŞ modeli), nə də digər sahəvi nazirliklərlə birgə reallaşmır. Bu modeldə turizm sektorunun inkişafı əsasən iqtisadi yönümlü çoxfunksiyalı nazirliklər daxilində və ya birbaşa hökumətə tabe olan, lakin nisbətən müstəqil idarəetmə orqanının statusuna malik olan xüsusi filial səviyyəsində həll olunur. Bu filial mərkəzləşdirilmiş struktur və ya dövlət orqanı ola bilər. Dünyanın müxtəlif ölkələrində turizm sektorunu idarə edən ixtisaslaşmış filial bölmələri fərqli adlarla mövcuddurlar. Lakin onların necə adlanmasından asılı olmayaraq, əsas mahiyyətləri eynidir.

Belə ki, bu orqanlar milli turizmin inkişafını yönləndirərək ölkədə turizm siyasətini formalaşdırırlar. Azərbaycanda turizm sektorunun inkişafı üçün alternativ modellər arasında Avropa modeli daha uyğun olduğundan bu modeli daha ətraflı şəkildə nəzərdən keçirmək məqsədəuyğundur. Bu modelə əsasən müvafiq dövlət orqanı turizmin davamlı inkişafı üçün:

- dövlətin, yerli hakimiyyət orqanlarının və özəl biznesin maraqlarının koordinasiyasını;
- makroiqtisadi və mezoekonomik səviyyələrdə səlahiyyətlilər arasında qarşılıqlı faydalı əməkdaşlıq formalarını;
- ölkələrdə turizmin inkişafı ilə məşğul olan təşkilatlar arasında əlaqələrin yaradılmasını təmin edirlər.

Dördüncü modeldə iki fərqli istiqamət mövcuddur: birinci istiqamət turizmin dövlət tənzimlənməsinin qlobal məsələlərini, regional və beynəlxalq səviyyədə fəaliyyətlərin əlaqələndirilməsini, beynəlxalq əməkdaşlığı həyata keçirir. İkinci istiqamət isə marketinqlə bağlı olaraq ölkənin müsbət imicinin yaranmasına, beynəlxalq sərgilərdə və forumlarda təmsil olunmasına, ölkəyə turist axınının təşviqi və sair məsələlərlə məşğul olur.

NƏTİCƏ

Beləliklə, dünyanın 193 ölkəsində turizmin dövlət tənzimləməsinin əsas xüsusiyyətlərinin təsnifləşdirilməsi deməyə əsas verir ki, turizmin sahəsində keyfiyyətin yaxşılaşdırılması üçün dövlət idarəetmə vasitələrinin və bazarın özünütənzimləməsi birləşdirilməlidir. Nəzərdən keçirilən modellər arasında Avropa modelinin Azərbaycan üçün tətbiqi daha məqsədəuyğundur.

ƏDƏBIYYAT SİYAHISI

1. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması.“İqtisad Universiteti” Nəşriyyatı, Bakı-2010. səh 125-130
2. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı, Mütərcim, 2006.
3. Галасюк С.С. Модели государственного регулирования в сфере туризма / С.С. Галасюк // Научные исследования в сфере туризма: труды Международной туристской Академии. 2010. – Вып.6. – С. 189-204.
4. Царук О.В. Выбор оптимальной модели государственного регулирования туризма в Украине / О.В. Царук // Пути и механизмы управления эффективным развитием национальной экономики в современных условиях: материалы Международной науч.-практ. Интернет-конф. (29-30 ноября 2012 г.) – Симферополь: Доля, 2012. – С.335-339.
5. Pompl W., Livery P. Tourism in Europe. CAB International. Haague. University of Amsterdam, 1993
6. https://www.president.az
7. https://www.unwto.org

Мамедова У. И.
Институт экономики НАНА, диссертант
E-mail: *ulker13@rambler.ru*

Международный опыт в области государственного регулирования туризма

Резюме

Цель исследования – проанализировать опыт государственного регулирования туризма и определить более подходящую модель для Азербайджана **Методология исследования** – сравнительный анализ

Результаты исследования –целесообразно выбрать Европейский модель регулирования туристического сектора экономики в Азербайджане

Ключевые слова: *Европейский модель, Американский модель, государственное регулирование, инвестиция*

Mammadova U. İ.
The Institute of Economics of ANAS, dissertant
E-mail: *ulker13@rambler.ru*

International experience in the field of tourism regulation

Abstract

The purpose of the research- to analyze the experience of state regulation of tourism in the world and to determine the most appropriate model for Azerbaijan

Methodology of the study – comparative analysis

Main results - the most appropriate model for Azerbaijan is European regulation model of tourism.

Key words: *European model, model US, state regulation, investment*

Daxil olub: 25. 05.2018

Rəy verib: AMEA İqtisadiyyat Institutunun *"Xidmət sahələrinin inkişafı problemləri"* şöbəsinin əməkdaşı i.f.d *Abdullayev K. N.*